**Naxçıvan Muxtar Respublikasının**
**Fövqəladə Hallar Nazirliyinin**
**18 dekabr 2023-cü il tarixli**
**2 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

# Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Əməliyyat-İstintaq İdarəsi haqqında

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Əməliyyat-İstintaq İdarəsi (bundan sonra-İdarə) Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra-ərazi) fövqəladə halların qarşısının alınması, qabaqlayıcı tədbirlərin görülməsi üçün əməliyyat-axtarış işlərini, habelə fövqəladə hallar zamanı baş vermiş hadisələrin təhqiqatını və ibtidai istintaqını aparan və baş vermiş cinayət hadisələri üzrə icraatın başlanmasını təmin edən, bu sahədə idarəetməni, əlaqələndirməni və nəzarəti həyata keçirən qurumdur.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin (bundan sonra-Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

1.3. İdarə öz vəzifələrini yerinə yetirərkən Nazirliyin aparatının struktur bölmələri, digər icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Nazirliyin və İdarənin adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. İdarənin saxlanma xərcləri və fəaliyyəti Nazirliyə ayrılmış dövlət büdcəsi vəsaiti və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. İdarə Naxçıvan şəhərində yerləşir.

## 2. İdarənin fəaliyyət istiqamətləri

2. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1. ərazidə fövqəladə halların qarşısının alınması istiqamətində əməliyyat-axtarış işlərinin həyata keçirilməsini təmin edir;

2.2. ərazidə baş vermiş fövqəladə hadisələr üzrə işlərin icraatının aparılmasını təmin edir;

2.3. əməliyyat işinin təşkili, təhqiqatın və istintaqın aparılması sahəsində təşkilati-metodik vasitələrin hazırlanmasını təşkil edir;

2.4. əməliyyat, təhqiqat və istintaq sahələrinin inkişafını təmin edir;

2.5. İdarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə normativ tənzimlənməni həyata keçirir;

2.6. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. İdarənin vəzifələri

3.0. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri həyata keçirir:

3.0.1. səlahiyyətlərinə aid edilmiş fəaliyyət istiqamətləri üzrə cinayətlərin aşkar edilməsi və qarşısının alınması məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, hüquqpozma törətməyə hazırlaşan şəxsləri aşkar edir;

3.0.2. əməliyyat-axtarış fəaliyyətini həyata keçirən digər dövlət orqanları ilə informasiya mübadiləsi aparır;

3.0.3. əməliyyat-axtarış fəaliyyətinə dair Nazirliyin normativ hüquqi aktlarının layihələrinin işlənib hazırlanmasında iştirak edir;

3.0.4. cinayət törədərək istintaqdan, təhqiqatdan və məhkəmə orqanlarından gizlənən şəxslərin axtarışını təşkil edir;

3.0.5. müvafiq qərarlar qəbul etmək məqsədilə operativ məlumatların, əməliyyat-sorğu uçotunu, cinayətkarlığın statistikasını və daxil olan məxfi informasiyanın qeydiyyatını aparır;

3.0.6. əməliyyat-axtarış fəaliyyətinin nəticələrini maddi (fiziki) məlumat daşıyıcılarında (fonoqramlarda, fotoşəkillərdə, maqnit və lazer disklərində, qəliblərdə və s.) və yaxud əməliyyat-xidməti sənədlərində (raportlarda, arayışlarda, hesabatlarda və s.) qeydə alır, əməliyyat-xidməti sənədlərinə əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilən əşya və sənədləri əlavə edir;

3.0.7. Nazirlik tərəfindən təsdiq edilmiş xərc smetasına uyğun olaraq ayrılmış pul vəsaiti daxilində əməliyyat-axtarış fəaliyyətini maliyyələşdirir, ayrılmış pul vəsaitlərinin səmərəli və məqsədli xərclənməsini təmin edir;

3.0.8. səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə cinayətlərə dair vətəndaşlardan və təşkilatlardan İdarəyə daxil olmuş yazılı və şifahi müraciətlərə baxır və onların əsasında müvafiq əməliyyat-axtarış tədbirlərini həyata keçirir;

3.0.9. təbii və texnogen xarakterli fövqəladə halların aşkar edilməsi və nəticələrinin aradan qaldırılması ilə bağlı əməliyyat tədbirləri həyata keçirir;

3.0.10. öz səlahiyyətləri daxilində insanların həyatı və sağlamlığı üçün təhlükə mənbəyi olan obyektləri əməliyyat tədbirləri nəticəsində aşkar edir və lazımi tədbirlər görülməsi üçün Nazirliyə təkliflər verir;

3.0.11. əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə və istintaq orqanlarının qərarlarını, cinayət işləri üzrə yazılı tapşırıqlarını, habelə əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarlarını yerinə yetirir;

3.0.12. əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin səlahiyyətlərinə aid informasiyalar əldə edildiyi təqdirdə zəruri hallarda təxirəsalınmaz tədbirlər keçirməklə həmin orqanları dərhal məlumatlandırır və onlara lazımi kömək göstərir;

3.0.13. məxfi kargüzarlığın aparılması, İdarənin fəaliyyəti ilə bağlı dövlət sirrinin və məxfiçilik rejiminin qorunması üçün qanunvericiliyə uyğun zəruri mühafizə və təhlükəsizlik tədbirləri görür;

3.0.14. baş vermiş yanğınlar, partlayışlar, qəzalar və Nazirliyin səlahiyyətlərinə aid olan digər fövqəladə hallar üzrə təhqiqatın və istintaqın aparılmasını təmin edir;

3.0.15. fövqəladə hallar baş verdikdə təhlükəsizlik qaydalarının pozulması üzrə təhqiqat aparır;

3.0.16. fövqəladə hal baş verdikdə qanunvericiliyə müvafiq olaraq hadisə yerində ilkin təhqiqat aparır;

3.0.17. cinayət işlərinin qeydiyyatını aparır, işlərin vaxtında başlanması, dayandırılması, xitamı və istintaqın qurtarması barədə aidiyyəti orqanlara məlumat verir;

3.0.18. yanğın hadisələri üzrə ilkin istintaq problemlərinə aid seminarlar təşkil edir;

3.0.19. İdarənin icraatına daxil olmuş materialları öyrənir, cinayət təqibini başlayır və ya cinayət işinin başlanılmasını rədd edir, habelə materialın aidiyyəti üzrə göndərilməsi barədə qərar qəbul edir, başlanmış cinayət işləri üzrə istintaq-əməliyyat planı tərtib etməklə təxirəsalınmaz, obyektiv, tam və hərtərəfli istintaq aparılmasını, törədilmiş cinayətlərin baş vermə səbəb və şəraitini tədqiq olunmasını təmin edir, belə səbəb və şəraitin aşkar edilib aradan qaldırılması üçün tədbirlər görür;

3.0.20. qanunvericiliyin tələblərinə uyğun olaraq icraata daxil olmuş mürəkkəb xarakterli və çox epizodlu işlərin istintaqını təşkil edir, cinayət işlərinin və ya materialların qanuni əsaslar üzrə birləşdirərək bir icraatda aparılması və ya işlərin ayrılıb ayrıca icraatda hərtərəfli, tam və obyektiv istintaq olunmasının, zəruri hallarda istintaq qruplarının yaradılmasını təmin edir;

3.0.21. cinayət işləri üzrə müvafiq əməliyyat tapşırıqlarını yerinə yetirir və alınmış nəticələrdən istintaqın gedişində istifadə edir;

3.0.22. istintaqla əlaqədar poçt, teleqraf və digər göndərişlər üzərində həbs qoyulmasını, telefon və başqa qurğularla aparılan danışıqların, rabitə və sair texniki vasitələrlə ötürülən digər məlumatların qanuni vasitələrlə əldə edilməsini təşkil edir, dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş ziyanın ödənilməsinin təminatı üçün banklara və digər hüquqi şəxslərə sorğuların göndərilməsini, ayrı-ayrı hesablarda olan pul vəsaitlərinin, qiymətli kağızların, qiymətli əşyaların, daşınan və daşınmaz əmlakın üzərinə həbs qoyur, təhqiqat üçün nümunələrin götürülməsini, ekspertiza aparılmasını təmin edir;

3.0.23. cinayət işləri üzrə təqsirkar şəxslərin qanuni əsaslarla məsuliyyətə cəlb edilməsini təmin edir, onların qanuni hüquqlarının müdafiəsini təşkil edir;

3.0.24. öz səlahiyyətləri çərçivəsində pozulmuş insan hüququ və azadlıqlarının, dövlət mənafeyinin qorunması, cinayət nəticəsində dəymiş ziyanın ödənilməsi üçün tədbirlər görür;

3.0.25. müvafiq hüquq-mühafizə orqanlarının istintaq və əməliyyat-axtarış xidmətləri ilə qarşılıqlı fəaliyyəti həyata keçirir, mövcud materialları ümumiləşdirərək təhlil edir, iş təcrübəsini təkmilləşdirir, cinayət işlərinin istintaqında əməliyyat-axtarış fəaliyyətinin nəticələrindən istifadə edir;

3.0.26. icraatda olan cinayət işləri və materiallar üzrə aylıq, yarımillik və illik hesabat, statistik və analitik məlumatları hazırlayır və Nazirliyə təqdim edir;

3.0.27. İdarənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər verir və öz səlahiyyətləri daxilində tədbirlər görür;

3.0.28. İdarənin fəaliyyəti istiqamətinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

## 4. İdarənin hüquqları

4.0. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. qanunvericilikdə nəzərdə tutulmuş qaydada aşkar və gizli üsullarla əməliyyat tədbirlərini həyata keçirmək;

4.0.2. İdarənin icraatına daxil olmuş materialları öyrənmək, cinayət tərkibi olduğu təqdirdə qanunvericilik tələblərinə uyğun olaraq cinayət işlərini başlamaq və ibtidai istintaq aparmaq;

4.0.3. mürəkkəb xarakterli və çox epizodlu cinayət işləri üzrə istintaq aparmaq məqsədilə istintaq qrupları yaratmaq, zəruri hallarda digər hüquq mühafizə orqanlarının müstəntiqlərini belə qruplara daxil edilməsi barədə Nazirliyin razılığı ilə Naxçıvan Muxtar Respublikasının prokuroru qarşısında vəsatət qaldırmaq;

4.0.4. cinayət işlərinin istintaqı ilə əlaqədar daxil olan ərizə, şikayət və müraciətlərə baxılması zamanı zərurət yarandığı təqdirdə cinayət işinin istintaqını bir müstəntiqdən alınıb digərinə verilməsi barədə Nazirliyin razılığı ilə Naxçıvan Muxtar Respublikasının prokuroru qarşısında vəsatət qaldırmaq;

4.0.5. İdarənin səlahiyyətlərinə aid olan məsələlər barədə lazım olan məlumatları və sənədləri əldə etmək üçün icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) tələb etmək;

4.0.6. Nazirliyin səlahiyyətlərinə aid edilmiş cinayətlərin operativ qaydada aşkarlanması məqsədilə informasiya məlumat bazası və əməliyyat fəaliyyətini təmin etmək üçün agentura şəbəkəsini yaratmaq;

4.0.7. İdarə və onun əməkdaşlarına məxfilik əsasında kömək etməyə razılıq vermiş şəxslərlə əvəzli və ya əvəzsiz əməkdaşlıq münasibətləri yaratmaq;

4.0.8. İdarənin qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədilə ayrılmış vəsait və əmlakdan, nəqliyyat vasitələrindən məqsədyönlü istifadə etmək, əməliyyat-axtarış prosesində müqavilə və ya şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək;

4.0.9. qoyulmuş vəzifələri yerinə yetirərkən İdarənin vəzifəli şəxslərinin zəruri olan obyektlərə daxil olmaq, qanunvericiliklə nəzərdə tutulmuş qaydada xidməti silah və xüsusi vasitələr saxlamaq, gəzdirmək və tətbiq etmək;

4.0.10. cinayətin törədilməsində şübhəli olan şəxsləri qanuna müvafiq şəkildə müvəqqəti saxlamaq və faktla əlaqədar təxirəsalınmaz prosessual hərəkətləri yerinə yetirmək;

4.0.11. istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı informasiya bankı yaratmaq;

4.0.12. istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyəti zamanı informasiya sistemlərindən, radioelektron, video, audio, kino, foto çəkilişlərdən, digər metod və vasitələrdən istifadə etmək;

4.0.13. fövqəladə və ya hərbi vəziyyət rejiminin təmin olunmasında, fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsində səlahiyyətləri daxilində iştirak etmək;

4.0.14. xüsusi siqnallar və rabitə vasitələri ilə təchiz edilmiş, habelə müəyyən olunmuş qaydada təsdiq edilmiş tanınma nişanı və rəngi olan xüsusi nəqliyyat vasitələrinə malik olmaq;

4.0.15. İdarənin fəaliyyət dairəsinə uyğun sahələr üzrə mütəxəssislərin hazırlanması və kadrların əlavə təhsili üçün Nazirliyə təkliflər vermək;

4.0.16. İdarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. İdarənin fəaliyyətinin təşkili

5.1. İdarə öz fəaliyyətini strukturuna daxil olan müstəqil şöbələr və bölmələr vasitəsilə həyata keçirir.

5.2. İdarənin şəxsi heyətlə komplektləşdirilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.3. İdarənin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri tərəfindən təsdiq olunmuş büdcədən maliyyələşdirilən əməkdaşlarının say həddi daxilində əməkdaşlarının sayı və ştat cədvəli, büdcə vəsaitləri üzrə xərclər və digər mənbələr hesabına gəlirlər və xərclər smetası Nazirlik tərəfindən təsdiq edilir.

5.4. İdarənin hərbi qulluqçuları qanunvericiliklə müəyyən olunmuş qaydada hərbi qulluğa qəbul və vəzifəyə təyin edilir, hərbi qulluqdan və vəzifədən azad edilir.

5.5. mülki şəxslərin İdarədə vəzifəyə təyin və vəzifədən azad edilməsi qanunvericiliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri (bundan sonra-nazir) tərəfindən həyata keçirilir.

5.6. İdarənin maliyyələşdirilməsi Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində Nazirliyin saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

5.7. İdarənin hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləği Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi

qaydaları isə qanunvericiliklə müəyyən edilir.

5.8. idarədə qulluq etmiş hərbi qulluqçuların və onların ailə üzvlərinin pensiya təminatı qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.9. İdarənin mülki işçilərinin əmək ödənişi qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

5.10. İdarənin fəaliyyətinə İdarənin rəisi (bundan sonra – rəis) rəhbərlik edir.

5.11. rəis nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.12. İdarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsinə görə rəis şəxsən məsuliyyət daşıyır.

5.13. rəisin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

5.14. rəis:

5.14.1. İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.14.2. öz müavininin səlahiyyətini müəyyən edir;

5.14.3. İdarənin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

5.14.4. idarənin fəaliyyət sahəsinə aid olan məsələlərlə bağlı normativ hüquqi aktların layihələrinin hazırlanmasını təşkil edir və baxılması üçün Nazirliyə təqdim edir;

5.14.5. idarənin struktur bölmələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə Nazirliyə təkliflər verir;

5.14.6. İdarənin fəaliyyəti ilə bağlı öz səlahiyyətləri daxilində əmrlər və göstərişlər verir, onların icrasına nəzarəti təşkil edir;

5.14.7. qanunvericiliyə əsasən İdarənin hərbi qulluqçularına ilk zabit rütbəsi və polkovnik rütbəsi daxil olmaqla, hərbi rütbələrin, o cümlədən vaxtından əvvəl və növbədənkənar hərbi rütbələrin verilməsi barədə nazir qarşısında vəsatət qaldırır;

5.14.8. qanunvericiliyə müvafiq qaydada İdarənin şəxsi heyətinin attestasiyasının keçirilməsini təşkil edir;

5.14.9. İdarənin hərbi qulluqçularının və mülki işçilərinin dövlət mükafatlarına təqdim olunması ilə bağlı Nazirliyə təkliflər verir;

5.14.10. İdarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün dövlət büdcəsinin layihəsində Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir, fəaliyyəti ilə əlaqədar olaraq qanunvericiliklə müəyyən edilmiş digər mənbələr hesabına Nazirliyin büdcədənkənar vəsaitlərin yaradılmasında iştirak edir və Nazirliyin təsdiq etdiyi gəlirlər və xərclər smetasına uyğun olaraq həmin vəsaitlərdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

5.14.11. İdarənin hərbi qulluqçuları və mülki işçiləri barədə qanunvericiliklə nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi barədə Nazirliyə təqdimat verir;

5.14.12. İdarənin hərbi qulluqçuları haqqında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin müəyyən etdiyi digər hüquqları həyata keçirir.